**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№368/3** **30 sentyabr 2024-cü il**

**“Azərbaycan Respublikasında auditor xidməti göstərən şəxslər tərəfindən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizəyə dair qanunvericiliyə riayət edilməsinin monitorinqinin aparılması barədə Qaydalar”a dair**

"Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli, “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 782-VIQ nömrəli Qanunlarına, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və digər normativ sənədlərə uyğun olaraq Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsi (E.İbrahimov) tərəfindən hazırlanmış “Azərbaycan Respublikasında auditor xidməti göstərən şəxslər tərəfindən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizəyə dair qanunvericiliyə riayət edilməsinin monitorinqinin aparılması barədə Qaydalar”ın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Azərbaycan Respublikasında auditor xidməti göstərən şəxslər tərəfindən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizəyə dair qanunvericiliyə riayət edilməsinin monitorinqinin aparılması barədə Qaydalar” bəyənilsin (əlavə olunur).

2. Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinə (E.İbrahimov) tapşırılsın ki:

2.1. “Azərbaycan Respublikasında auditor xidməti göstərən şəxslər tərəfindən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizəyə dair qanunvericiliyə riayət edilməsinin monitorinqinin aparılması barədə Qaydalar”a əsasən monitorinqin aparılması təsdiq olunmuş qrafik və ya rəhbərliyin qərarı ilə təmin edilsin;

2.2. Bu Qaydalara əsasən monitorinqin keçirilməsi məqsədilə bir ay ərzində müfəttişlər qrupunun üzvləri üçün təlim keçirilsin.

3. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**